***Azərbaycan Respublikası***

***Maliyyə Nazirliyinin***

*“06” dekabr 2011-ci il tarixli*
*Q-01 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta haqqı məbləğlərinin hesablanması

# Q A Y D A S I

# 1. ÜMUMI MÜDDƏALAR

1.1. Bu Qaydalar «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.8-ci yarımbəndinin icrası məqsədilə hazırlanmışdır və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta haqqı məbləğlərinin hesablanması ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.2.1. Bonus-Malus (bundan sonra – "BM") sistemi - əvvəlki sığorta müqavilələri üzrə nəqliyyat vasitəsi sürücüsünün təqsiri üzündən baş verən sığorta hadisəsinin olub-olmamasından asılı olaraq, sığortalıya münasibətdə sığorta haqlarını artıran və ya azaldan əmsallar tətbiq edilməsini nəzərdə tutan güzəştlər və əlavələr sistemi.

1.2.2. Bonus–Malus subyekti (bundan sonra – "BM subyekti") – barəsində BM sistemi ilə müəyyənləşdirilən güzəşt və ya əlavələrin tətbiq edildiyi şəxs;

1.2.3. fərdi BM subyekti (bundan sonra – "FBMS") - məsuliyyəti son bir il ərzində bütün BM qrupları üzrə 428 gün və ya daha az müddətdə icbari sığortalanmış BM subyekti;

1.2.4. avtopark olan BM subyekti (bundan sonra – "ABMS") - məsuliyyəti son bir il ərzində bütün BM qrupları üzrə 428 gündən çox müddətdə icbari sığortalanmış BM subyekti;

1.2.5. BM sinfi – hər hansı bir BM subyekti üçün avtonəqliyyat vasitələrinin müvafiq BM qrupu üzrə müəyyən edilmiş risk sinfi;

1.2.6. Aralıq BM sinfi (bundan sonra – "ABM sinfi") – FBMS-nin BM sinfinin müəyyənləşdirilməsi zamanı son bir il və ondan əvvəlki illər ərzində müvafiq BM qrupu üzrə sığortalanmış olduğu günlərin sayına görə fərqləndirilərək istifadə olunan göstərici;

1.2.7. avtonəqliyyat vasitələrinin BM qrupları (bundan sonra – "BM qrupu") aşağıdakılardır:

1.2.7.1. minik avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri;

1.2.7.2. yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri;

1.2.7.3. avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri;

1.2.7.4. motosikletlər və motorollerlər;

1.2.7.5. traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri;

1.2.7.6. trolleybuslar və tramvaylar.

## 2. SIĞORTA HAQQI MƏBLƏĞININ HESABLANMASI QAYDASI

2.1. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsi bağlanarkən ödənilməli olan bir illik sığorta haqqı məbləğinin hesablanması üçün, baza sığorta haqqı məbləğinə bu Qaydalarla müəyyən edilmiş əmsallar tətbiq olunmaqla aşağıdakı qayda tətbiq olunur:

2.1.1. Avtonəqliyyat vasitəsinin sahibi fiziki şəxs olduqda:

SH = BSH x ANVƏ x BMƏ

*burada,*

SH – bir illik sığorta haqqı məbləği;

BSH – baza sığorta haqqı məbləği;

ANVƏ – avtonəqliyyat vasitəsinin növünə görə əmsal;
BMƏ – Bonus-Malus sinfinə görə əmsal;

2.1.2. Avtonəqliyyat vasitəsinin sahibi hüquqi şəxs olduqda:

SH = BSH x ANVƏ x BMƏ x HŞƏ

*burada,*

SH – bir illik sığorta haqqı məbləği;

BSH – baza sığorta haqqı məbləği;

ANVƏ – avtonəqliyyat vasitəsinin növünə görə əmsal;

BMƏ – Bonus-Malus sinfinə görə əmsal;

HŞƏ – avtonəqliyyat vasitəsi sahibinin hüquqi şəxs olmasına görə əmsal.

2.2. Baza sığorta haqqı 50,0 manat məbləğində müəyyən olunur.

## 3. AVTONƏQLIYYAT VASITƏSININ NÖVÜNƏ GÖRƏ TƏTBIQ OLUNAN ƏMSALLAR

3.1. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsi bağlanarkən ödənilməli olan bir illik sığorta haqqı məbləğinin hesablanması üçün avtonəqliyyat vasitəsinin növünə görə aşağıdakı əmsallar tətbiq olunur:

**Cədvəl 1.**

| S.n. | Avtonəqliyyat vasitəsinin növü | Əmsallar |
|---|---|---|
| 1. | Minik avtomobillərinin və onların bazasında istehsali edilmiş digər avtonəqliyyat vasitələri – mühərriklərinin həcminə görə: | |
| | 50 $sm^3$ – 1500 $sm^3$ | 1,00 |
| | 1501 $sm^3$ – 2000 $sm^3$ | 1,50 |
| | 2 001 $sm^3$ – 2500 $sm^3$ | 2,00 |
| | 2501 $sm^3$ – 3000 $sm^3$ | 2,50 |
| | 3001 $sm^3$ – 3500 $sm^3$ | 3,00 |
| | 3501 $sm^3$– 4000 $sm^3$ | 3,50 |
| | 4001 $sm^3$– 4500 $sm^3$ | 4,00 |
| | 4501 $sm^3$– 5000 $sm^3$ | 4,50 |
| | 5000 $sm^3$-dən çox | 5,00 |
| 2. | Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri – sərnişin yerlərinin sayına görə: | |
| | 9 – 16 | 3,00 |
| | 16 – dan artıq | 4,00 |
| **3.** | Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri – icazə verilən maksimum kütləsinə görə: | |
| | 3500 kq-dan çox olmadıqda | 3,00 |
| | 3501 kq – 7 000 kq | 4,00 |
| | 7000 kq – dan yuxarı | 5,00 |
| **4.** | Motosikletlər və motorollerlər | 1,00 |
| **5.** | Qoşqular və yarımqoşqular | 0,50 |
| **6.** | Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri | 1,00 |
| **7.** | Trolleybuslar və tramvaylar | 2,00 |

## 4. BONUS-MALUS SISTEMI VƏ ONUNLA BAĞLI TƏTBIQ OLUNAN ƏMSALLAR

4.1 Bonus-Malus sistemi İcbari Sığorta Bürosunun İnformasiya Sisteminin tərkib hissəsidir və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə aşağıdakı funksiyaları yerinə yetirir:

4.1.1 BM siniflərinin vahid qaydada müəyyən olunmasını təmin edir;

4.1.2 hər bir BM subyektinin son 11 il üzrə sığortalanma tarixi barədə məlumatların uçotunu təmin edir;

4.1.3 hər bir BM subyekti üçün BM sinfinin müvafiq BM qrupu üzrə müəyyənləşdirilməsini təmin edir.

4.2 BM sinifləri aşağıdakı kimi təsnifləşdirilir:

4.2.1 Sığorta riskinin yüksək olmasını əks etdirən Malus sinifləri (1-ci - 5-ci VM sinifləri);

4.2.2 Sığorta riskinin aşağı olmasını əks etdirən Bonus sinifləri (7-ci - 17-ci VM sinifləri);

4.2.3 Müvafiq BM qrupuna aid olan avtonəqliyyat vasitəsinə münasibətdə sığorta müqaviləsi ilk dəfə bağlanarkən təyin olunan və sığorta riskinin qeyri-müəyyən olmasını əks etdirən 6-cı BM sinfi.

4.3 BM sinfi 2013-cü ildən etibarən hər ilin 15 yanvar tarixinə (bundan sonra – hesablama tarixi) müəyyənləşdirilir və növbəti ilin 15 yanvar tarixinədək qüvvədə olur;

4.4 BM sinfinin hesablanması üçün əvvəlki təqvim ilinin 1 yanvar tarixindən cari ilin 1 yanvar tarixinədək müddətə aid olan məlumatlardan istifadə olunur.

4.5 Əgər BM subyekti hesablama tarixindən sonra eyni BM qrupuna aid olan digər avtonəqliyyat vasitəsinə münasibətdə BM subyekti olarsa, həmin avtonəqliyyat vasitəsinə münasibətdə BM subyektinin BM sinfi dəyişmir.

4.6 **FBMS-in BM sinfi iki mərhələdə müəyyənləşdirilir:**

4.6.1 birinci mərhələdə FBMS-in ABM sinfi aşağıdakı qaydada müəyyənləşdirilir:

4.6.1.1 FBMS-in məsuliyyəti son bir il ərzində müvafiq BM qrupu üzrə 275 gündən az müddətdə sığortalı olduqda, onun həmin BM qrupu üzrə sığortalı olduğu günlərin sayı növbəti il üçün BM sinfinin müəyyənləşdirilməsi zamanı nəzərə alınır. FBMS-in məsuliyyəti son bir il ərzində müvafiq BM qrupu üzrə 275 gündən az olmayan müddətdə sığortalı olduqda isə onun həmin BM qrupu üzrə sığortalı olduğu günlərin sayı növbəti ildə BM sinfinin müəyyənləşdirilməsi zamanı nəzərə alınmır.

4.6.1.2 Son bir il ərzində FBMS-in sığortalı olduğu günlərin sayı və bir il əvvələ 4.6.1.1-ci bəndin tələbləri nəzərə alınmaqla bir il əvvəlki sığortalı olduğu günlərin sayı birlikdə:

4.6.1.2.1 275-dən azdırsa, onun həmin BM qrupu üzrə BM sinfi dəyişmir;

4.6.1.2.2 275 – 550-dirsə, mövcud BM sinfi 1 pillə artır;

4.6.1.2.3 550-dən çoxdursa, mövcud BM sinfi 2 pillə artır.

**Cədvəl 2**

**FBMS-in məsuliyyətinin son bir il və ondan əvvəlki illər ərzində müvafiq BM qrupu üzrə sığortalanmış olduğu günlərin sayına görə ABM sinfinin müəyyənləşdirilməsi**

| **Mövcud BM sinfi** | **ABM sinfi** | | |
|---|---|---|---|
| | *275 gündən az* | *275 – 550 gün* | *550 gündən çox* |
| 17 | 17 | 17 | 17 |
| 16 | 16 | 17 | 17 |
| 15 | 15 | 16 | 17 |
| 14 | 14 | 15 | 16 |
| 13 | 13 | 14 | 15 |
| 12 | 12 | 13 | 14 |
| 11 | 11 | 12 | 13 |
| 10 | 10 | 11 | 12 |
| 9 | 9 | 10 | 11 |
| 8 | 8 | 9 | 10 |
| 7 | 7 | 8 | 9 |
| 6 | 6 | 7 | 8 |
| 5 | 5 | 6 | 7 |
| 4 | 4 | 5 | 6 |
| 3 | 3 | 4 | 5 |
| 2 | 2 | 3 | 4 |
| 1 | 1 | 2 | 3 |

4.6.2 **İkinci mərhələdə FBMS-in BM sinfi aşağıdakı qaydada müəyyənləşdirilir:**

4.6.2.1 Əgər FBMS-in təqsiri üzündən son bir il ərzində müvafiq BM qrupu üzrə heç bir sığorta hadisəsi baş verməyibsə, onun BM sinfi bu Qaydaların 4.6.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş ABM sinfinə bərabərdir;

4.6.2.2 Əgər FBMS-in təqsiri üzündən son bir il ərzində müvafiq BM qrupu üzrə 1 və ya daha çox sığorta hadisəsi baş vermişdirsə, onun ABM sinfi sığorta hadisələrinin sayından asılı olaraq həmin ABM sinfinin aşağıda göstərilən faiz nisbətində 1-ci BM sinfindən az olmayan həddə qədər azalır:

4.6.2.2.1 bir sığorta hadisəsi baş verdikdə - 30 faiz;

4.6.2.2.2 iki sığorta hadisəsi baş verdikdə - 50 faiz;

4.6.2.2.3 üç sığorta hadisəsi baş verdikdə - 80 faiz;

4.6.2.2.4 dörd və ya daha çox sığorta hadisəsi baş verdikdə - 1-ci BM sinfi müəyyənləşdirilir.

**Cədvəl 3**

**FBMS-in BM sinfinin müəyyənləşdirilməsi**

| **Bu Qaydaların 4.6.1-ci maddəsinə uyğun qaydada müəyyən edilmiş ABM sinfi** | ***FBMS-in BM sinfi*** | | | |
|---|---|---|---|---|
| | *1 sığorta hadisəsi* | *2 sığorta hadisəsi* | *3 sığorta hadisəsi* | *4 və daha çox sığorta hadisəsi* |
| 17 | 12 | 9 | 3 | 1 |
| 16 | 11 | 8 | 3 | 1 |
| 15 | 11 | 8 | 3 | 1 |
| 14 | 10 | 7 | 3 | 1 |
| 13 | 9 | 7 | 3 | 1 |
| 12 | 8 | 6 | 2 | 1 |
| 11 | 8 | 6 | 2 | 1 |
| 10 | 7 | 5 | 2 | 1 |
| 9 | 6 | 5 | 2 | 1 |
| 8 | 6 | 4 | 2 | 1 |
| 7 | 5 | 4 | 1 | 1 |
| 6 | 4 | 3 | 1 | 1 |
| 5 | 4 | 3 | 1 | 1 |
| 4 | 3 | 2 | 1 | 1 |
| 3 | 2 | 2 | 1 | 1 |
| 2 | 1 | 1 | 1 | 1 |
| 1 | 1 | 1 | 1 | 1 |

4.7 **ABMS-in BM sinfi aşağıdakı qaydada müəyyən edilir:**

4.7.1 ABMS-in təqsiri üzündən müvafiq BM qrupu üzrə son bir il ərzində baş vermiş sığorta hadisələrinin sayını həmin il ərzində onun sığortalı olduğu günlərin sayına bölməklə tezlik əmsalı (bundan sonra – TƏ) hesablanır;

4.7.2 İcbari Sığorta Bürosu tərəfindən ildə bir dəfə son beş il ərzində bütün sığortalıların təqsiri üzündən baş vermiş sığorta hadisələrinin sayını həmin müddət ərzində bütün sığortalıların sığortalı olduqları günlərin sayına bölməklə orta tezlik əmsalı (bundan sonra – OTƏ) hesablanır;

4.7.3 Aşağıdakı qaydada ABM sinfi müəyyənləşdirilir:

4.7.3.1 TƏ < OTƏ şərti yerinə yetirildikdə ABMS-in ABM sinfi onun mövcud BM sinfindən 1 pillə yüksək səviyyədə müəyyənləşdirilir;

4.7.3.2 TƏ < OTƏ şərti yerinə yetirilmədikdə ABMS-in ABM sinfi onun mövcud BM sinfinə bərabər səviyyədə müəyyənləşdirilir;

4.7.4 ilin günlərinin sayının 30 faizini təşkil edən azalma əmsalı (bundan sonra – AƏ) müəyyənləşdirilir: AƏ = 365 x 30% = 109,5;

4.7.5 aşağıdakı düstura əsasən hesablanan ədəd ən yaxın tam ədədədək yuvarlaqlaşdırılmaqla ABMS-in BM sinfi müəyyənləşdirilir:

BM = ABM sinfi x (1 – TƏ x AƏ).

4.8 FBMS-ə və ABMS-ə münasibətdə Bonus-Malus sinfinə görə əmsal (BMƏ) aşağıdakı cədvələ uyğun qaydada tətbiq olunur:

**Cədvəl 4**

| BM sinfi | BMƏ |
|---|---|
| 17 | 0,45 |
| 16 | 0,50 |
| 15 | 0,55 |
| 14 | 0,60 |
| 13 | 0,65 |
| 12 | 0,70 |
| 11 | 0,75 |
| 10 | 0,80 |
| 9 | 0,85 |
| 8 | 0,90 |
| 7 | 0,95 |
| 6 | 1,00 |
| 5 | 1,25 |
| 4 | 1,60 |
| 3 | 2,00 |
| 2 | 2,45 |
| 1 | 3,00 |

## 5. AVTONƏQLIYYAT VASITƏSI SAHIBININ HÜQUQI ŞƏXS OLMASINA GÖRƏ ƏLAVƏ ƏMSAL

Avtonəqliyyat vasitəsinin sahibi hüquqi şəxs olduqda, həmçinin 1,20 əmsalı tətbiq edilir.

## 6. XARICI ÖLKƏDƏ QEYDIYYATA ALINMIŞ VƏ AZƏRBAYCAN RESPUBLIKASINA TRANZIT MƏQSƏDILƏ DAXIL OLAN AVTONƏQLIYYAT VASITƏLƏRINƏ GÖRƏ SIĞORTA HAQQI

Azərbaycan Respublikasının ərazisinə tranzit məqsədilə daxil olan xarici ölkədə qeydiyyata alınmış avtonəqliyyat vasitələrinin sahibləri ilə bir ay müddətinə bağlanan icbari sığorta müqavilələri üzrə sığorta haqları müvafiq avtonəqliyyat vasitəsinə görə bu Qaydalar əsasında hesablanan bir illik sığorta haqqının 25 faizi həcmində müəyyən edilir.